| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənn (kodu, adı, kreditlərin sayı)** | CMS 435, İnformatikanın tədrisi metodikası, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Müəllim** | Şəbnəm Rüstəmli |
| | **E-mail:** | shabnamrustamlii@gmail.com |
| | **Telefon:** | - |
| | **Otaq/Dərs saatları** | Nərimanov korpusu |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü** | Məcburi | |
| **Dərsliklər** | 1. Dövlət İmtahan Mərkəzi – İnformatika kitabı (2022)<br>2. Əliyeva T.Ə. – "İbtidai siniflərdə informatika fənninin tədrisi", Bakı, 2021, 176 səh.<br>3. Məmmədov F. – "İnformatikanın kurikulum əsaslı tədrisi", Bakı, 2021, 192 səh.<br>4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi – "İnformatika fənni üzrə kurikulum sənədləri (I–XI siniflər üçün)", Bakı, 2019.<br>5. Təhsil İnstitutu – "İnformatika müəllimi üçün metodik vəsait", Bakı, 2020. | |
| **Kursun təsviri** | İnformatikanın tədrisi metodikası kursunda informatikanın və İKT-nin məktəbdə tədrisi nəzəriyyəsinin və metodikasının ümumi məsələləri, informatikanın baza kursunun tədrisi və müasir informasiya texnologiyalarının tədris prosesində tətbiqi məsələləri öyrənilir. Bu kurs bakalavr pilləsində təhsil alan tələbələrə İnformatika elminin əsas anlayışları ilə tanışlıq məqsədini daşıyır. Mühazirələr, praktiki dərslər materialın daha yaxşı başa düşülməsi üçün vacib olan misallarla keçilir. Birinci mühazirələr kompüterlərin nəsilləri və onların tarixi haqqında ümumi məzmunla tanışlıq üçündür. Daha sonra kompterin tərkib hissələri və sistemin arxitekturası haqda məlumat verilir. İnformatika sürətlə inkişaf edən və daim yenilənən bir sahə olduğundan, onun tədrisində məqsəd elmi informasiyanın bolluğundan daha çox, daxili-mənəvi mədəniyyətin və əxlaqiinsani kamilliyin səviyyəsini yüksəltmək olmalıdır. Fənnin tədrisində məqsəd həm də tələbəyə hazır mühakimə əzbərlətmək yox, mühakimə yürütməyi öyrətməkdir. | |
| **Kursun məqsədləri** | Təlim kursu ali məktəblərdə müxtəlif tədris səviyyələrində İnformatika fənninin effektiv şəkildə öyrədilməsini təmin etmək, pedaqoji fakültələrində, humanitar və texniki ixtisaslarda İKT-nin istifadəsi, kompüter təlimi proqramlarının hazırlanması və onların tədrisdə tətbiqi üzrə bilik və bacarıqların tələbələrdə inkişaf etdirmək məqsədi daşıyır. | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | -Sadə kompüter strukturunu və sistemin quruluşunu təsvir edə biləcəklər;<br>-Kompüter sistemlərinin və proqram əlavələrinin əsasları haqqında əsas anlayışlara sahib ola biləcəklər;<br>-Microsoft Office paketinə daxil olan proqramlarla (Word, Excel və PowerPoint) iş təcrübəsi qazanmış olacaqlar. | |
| **Tədris metodları** | Praktiki tapşırıqlar | + |
| | Laboratoriya işi | + |
| | Qrup müzakirə | + |

| Qiymətləndirmə | Komponentlər | Tarix/Son müddət | Faiz (%) |
|---|---|---|---|
| | **Aralıq imtahanı** | | 25 |
| | **Quiz (4)** | Semestr ərzində | 20 |
| | **Fəallıq** | Semestr ərzində | 5 |
| | **Praktiki iş** | Semestr ərzində | 5 |
| | **Layihə** | Semestr ərzində | 5 |
| | **Qrup işi (Təqdimat)** | Final imtahanından öncə | 5 |
| | **Final imtahanı** | | 35 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq:** Tələbə keçirilən praktiki dərslərdə öz fəaliyyətini həm fərdi həm də qrup şəklində praktiki olaraq yerinə yetirməlidir.Burada məqsəd gələcəyin pedoqoji fəaliyyəti ilə məşğul olacaq kadrın şagirdlərin öyrənmə imkanlarını nəzərə alması, dövlət normalarını bilməsidir.<br>**Davamiyyət:** Tələbələrin bütün dərsdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayıb yazılır. Tələbə müəyyən səbəblərdən (xəstəlik,ailə vəziyyəti)dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**İmtahanlar:** Aralıq imtahanı aprel ayında tədris olunan mövzular üzrə, final imtahanı iyun ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>**İmtahan qaydalarının pozuntuları:** Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunr və tələbə 0 (sıfır) qiyməti ilə imtahandan kənarlaşdırılır.<br>**Tələbənin davranış qaydaları:** Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin mobil telefondan istifadəsinə icazə verilmir.<br>**Quiz:** Semestr ərzində imtahan sessiyalarından öncə 4 quiz təşkil olunacaq.<br>**Praktiki iş:** Tələbələr kompüter və proqram təminatı vasitəsilə dərsdə öyrəndikləri nəzəri bilikləri tətbiq edirlər. Məsələn, elektron dərs planı hazırlanması və ya tədris proqramlarının sınaqdan keçirilməsi.<br>**Layihə:** Şagirdlər üçün interaktiv dərs vəsaiti və ya elektron resurs hazırlanması üzərində fərdi və ya cütlük şəklində işlənir. Layihə sonunda müəllimlik fəaliyyətinə uyğun məhsul təqdim olunur.<br>**Qrup işi (Təqdimat):** Tələbələr 3-5 nəfərlik qruplarda informatikanın tədrisi ilə bağlı mövzuda araşdırma aparıb nəticələri təqdimat formasında auditoriyaya təqdim edirlər. Bu iş həm əməkdaşlıq, həm də təqdimat bacarıqlarını inkişaf etdirir. | | |

**Dərs Cədvəli**

| Həftə | Tarix/Gün (dəyişdirilə bilər) | Mövzular | Dərslik və Tapşırıqlar |
|---|---|---|---|
| 1 | 17.02.2026 | “İnformatikanın tədrisi metodikası” fənninin predmeti və əsas anlayışları. “İnformatikanın tədrisi metodikası” fənninin əsas məqsəd və vəzifələri. İnformatika fundamental elm kimi. Əsas terminlər | [6] səh. 9–30 |

| | | | |
|---|---|---|---|
| | | və anlayışlar. Müqayisəli təhlillər. | |
| 2 | 24.02.2026 | Təhsil pillələri və səviyyələri üzrə İnformatika və İnformasiya Texnologiyaları müəllimlərinin fəaliyyət sahələri və onların səlahiyyətləri. İnformatika fənninin tədrisinin informasiya cəmiyyətində rolu və onun təhsil strategiyasında yeri. | [1] səh. 119–147 |
| 3 | 03.03.2026 | İnformatika fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri. İnformatika təliminin məzmunu. İnformatika fənnini tədris edən müəllimlərin öyrədilməsi. Öyrədənlərin öyrədilməsi texnologiyaları. Quiz | [1] səh. 168–181 |
| 4 | 10.03.2026 | İnformatika fənninin tədrisi problemlərinin araşdırılması, ümumiləşdirilməsi və təhlili. İnformatika fənninin sərbəst öyrənilməsi. Distant təhsil texnologiyalarının köməyi ilə İnformatika fənni mövzularının mənimsənilməsi. | MS Teams və Outlook üzərində iş |
| 5 | 17.03.2026 | İnformatika fənninin tədrisini əhatə edən Web səhifələrin, məktəb Web portallarının və digər informasiya resurslarının yaradılması texnologiyalarının nəzəri cəhətdən öyrədilməsi və praktiki təcrübələrin həyata keçirilməsi. | [5] səh. – 25–110<br>Praktik dərs |
| 6 | 24.03.2026 | Bulud texnologiyaları və təhsil sahəsini əhatə edən virtual reallıqların əlaqələndirilməsi. Sosial şəbəkələrdən və sosial media alətlərindən istifadə etməklə təhsildə innovasiya texnologiyalarının tətbiq edilməsi metodikalarının öyrədilməsi. Quiz | [1] səh. 59–64<br>Proqram üzərində iş |
| 7 | 31.03.2026 | İnformatika fənninin tədrisini əhatə edən test tapşırıqlarının hazırlanması, müasir test texnologiyalarının informatikanın tədrisi prosesində istifadə olunmasının öyrədilməsi metodikasının mənimsədilməsi. | [1]səh. 80–95 |
| 8 | 07.04.2026 | **Aralıq imtahanı**<br>Ümumi keçirilənlərin təkrarı | |
| 9 | 14.04.2026 | İbtidai məktəbdə I-IV siniflərində ayrı-ayrı mövzuların öyrədilməsi metodikası. Biliklərin nümayişi. Ev tapşırıqları. Sərbəst işlər. Praktika. Qiymətləndirmə. Quiz | [3] s. 165–185 |
| 10 | 21.04.2026 | Ümumtəhsil məktəblərinin V-VII siniflərində ayrı-ayrı mövzuların öyrədilməsi metodikası. Biliklərin nümayişi. Ev tapşırıqları. Sərbəst işlər. Praktika. Qiymətləndirmə. | [4] s. 20–95 |
| 11 | 28.04.2026 | Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində ayrı-ayrı mövzuların öyrədilməsi metodikası. Biliklərin nümayişi. Ev tapşırıqları. Sərbəst işlər. Praktika. Qiymətləndirmə. | [5] s. 35–85 |

| | | | |
|---|---|---|---|
| 12 | 05.05.2026 | Ümumtəhsil məktəblərinin X-XI siniflərində ayrı-ayrı mövzuların öyrədilməsi metodikası. Biliklərin nümayişi. Ev tapşırıqları. Sərbəst işlər. Praktika. Qiymətləndirmə. Quiz | [5] s. s. 86–130 |
| 13 | 12.05.2026 | Fənn daxili inteqrasiya. Fənlərarası inteqrasiya. | [4] s. 96–100 |
| 14 | 19.05.2026 | Ali məktəblərində İnformatika kursunun əsas bölmələrinin tədrisi metodikası. Biliklərin nümayişi. Ev tapşırıqları. Sərbəst işlər. Praktika. Qiymətləndirmə. | [1] səh. 306-312 |
| 15 | 26.05.2026 | Müsahibələrdə İnformatika fənninə aid verilən sualların cavablandırılması. | İnteqrativ dərs |
| **Yekun imtahan** | | | |